# "Vətənin müdafiəsinə hazıram!" mövzusunda tədbir keçirilib

(Əvvəli 2-ci səhifədə).

Abil Ağasəfov tarixə "Dördgünlük müharibə" adı ilə düşən aprel döyüşlərinin gənclərin hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdiyini, qazanılan qələbənin xalqımızın orduya olan inamını daha da artırdığını ifadə edib.

SHXÇDX-nin şöbə rəisi polkovnik Rasim Şirinov çıxışında vətənpərvərlik hissinin yüksəldilməsi üçün xidmət tərəfindən silsilə tədbirlərin keçirildiyini vurğulayıb. Şöbə rəisi təmsil etdiyi qurum tərəfindən bütün rayonlarda gənclərin vətənpərvərlik tərbiyəsi və səfərbərliyə hazırlığı, çağırışçılarda vətənpərvərlik hissinin yüksəldilməsi ilə bağlı tədbirlərin keçirildiyini bildirib. O, Vətən uğrunda canlarını fəda edən oğulların heç vaxt yaddan çıxmayacağını vurğulayaraq, bu gün ordu sıralarına göndərilən gənclərin mütəxəssis hazırlığı məktəblərinə cəlb edildiklərini və artıq onların orduya gedərkən hazırlıqlı olduqlarını qeyd edib.

Tədbirdə çıxış edən Respublika Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyev qeyd edib ki, insanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik, yurdsevərlik ideyalarının hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətindən qaynaqlanır. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü Emin Həsənli çıxışında ümummilli liderin başladığı yolu bu gün böyük uzaqgörənliklə davam etdirən Prezidentimiz cənab İlham Əliyev tərəfindən Azərbaycan gəncliyinə göstərilən diqqət və qayğıdan danışıb. O, ölkədə milli dəyərlərə söykənən davamlı və ardıcıl gənclər siyasətinin həyata keçirildiyini qeyd edib.

SHXÇDX-nin Qəbələ Rayon Şöbəsinin rəisi polkovnik İlqar Əliyev respublikamızın hər bir yerində olduğu kimi Qəbələ rayonunda da gənclər arasında Heydər Əliyev ideyalarının, onun azərbaycançılıq və hərbi vətənpərvərlik prinsiplərinin inkişafı istiqamətində əldə olunan nailiyyətlərin və bununla bağlı görülən işlərin bundan sonra da uğurla davam etdiriləcəyini, bildirib.

Tədbirdə Rasim Şirinov SHXÇDX-nin təsis etdiyi "Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərinə görə" mükafatlarını aprel döyüşlərində şəhid olmuş həmyerlimiz leytenant Sahil Şirinovun atasına və Qarabağ Müharibəsi veteranı Qiyaməddin Rəhimova təqdim edib.

Eləcə də, çağırışaqədərki hazırlıq fənninin tədrisində və hərbi vətənpərvərlik işinin aparılmasında səmərəli fəaliyyətinə görə Abrıx kənd tam orta məktəbin hərbi rəhbəri Fəzair Abdullayev, "Gənclərin çağırışaqədərki hazırlığı fənnində yüksək nailiyyətlərə görə" Tüntül kənd tam orta məktəbin X sinif şagirdi Pünhan Paşazadə SHXÇDX tərəfindən mükafatlandırılıb.

Yekunda Rasim Şirinov tədbirin təşkilatçılığında göstərdiyi dəstəyə görə Qəbələ Rayon İcra Hakimiyyətinə SHXÇDX-nin adından xatirə plaketi təqdim edib.

Tədbir vətənpərvərlik mövzusuna həsr olunmuş bədii hissə ilə davam edib.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

*16 dekabr Fövqəladə Hallar Nazirliyi işçilərinin peşə bayramı günüdür*

# FHN-nin Şimal-qərb Regional Mərkəzinin işçiləri peşə bayramını qeyd edib

***Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ölkə Prezidenti cənab İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli sərəncamı ilə yaradılıb.***

***Sərəncamam əsasən Fövqəladə Hallar Nazirliyi sistemi işçilərinin peşə bayramı günü kimi qeyd olunur.***



Dekabrın 16-da Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin işçiləri peşə bayramını qeyd ediblər. Həmin gün mərkəzin şəxsi heyəti ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, ulu öndərin əziz xatirəsinə öz ehtiramlarını bildiriblər.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov və hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak ediblər.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**

# Növbəti peşəyönümü tədbiri keçirildi





***Yuxarı sinif şagirdləri ilə keçirilən peşəyönümü tədbirlərinin davamı olaraq 19 dekabr 2017-ci il tarixdə Qəbələ şəhər 2 nömrəli tam orta məktəbdə "Peşə seçimində gənclərə dəstək" mövzusunda növbəti tədbir keçirilib.***

Maarifləndirici seminarda şagirdlərə peşəyönümü tədbirlərinin mahiyyəti və məqsədi barədə məlumat verilərək onlara səmərəli məşğulluğun təmin olunmasında düzgün peşə seçiminin əsas amil olduğu, peşə seçərkən əmək bazarının işçi qüvvəsinə olan tələbatını nəzərə almaları tövsiyə olundu.

Bundan əlavə şagirdlər "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun bəzi müddəaları, məşğulluq mərkəzləri tərəfindən vətəndaşlara göstərilən xidmətlər, rayonun iqtisadi durumu, yeni yaradılmış iş yerləri, rayon ərazisində fəaliyyət göstərən idarə və müəssisələrdə mövcud olan vakant yerlər və bu iş yerlərinə peşəkar kadrların hazırlanması istiqamətində görülən işlər barədə məlumatlandırıldılar.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü

31 dekabr - bu gün Azərbaycan xalqının tarixində ən yadda qalan, ən şərəfli günlərdən biri, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür!

Bu günün əsası 1989-cu ildə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Azərbaycan sərhədinin (SSRİ - İran sərhəddinin) dağıdılması ilə qoyulub. Uzun zaman bir-birinə həsrət qalan Azərbaycan xalqının Arazın hər iki sahilində sərhəd yürüyüşü - Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəklərini yıxması, o taylı-bu taylı xalqın həftələrlə Araz qırağında gecə-gündüz birləşmək arzusu ilə toplaşması əslində azərbaycanlıların bir xalq kimi ikiyə parçalanmış vətənlərini birləşdirmək cəhdi idi. Həmrəylik günü bu birləşmək istəyinin simvolik nişanəsidir.

Azərbaycanın XX əsrin sonunda müstəqillik əldə etməsi, bəlkə də, taleyin xalqımıza bəxş etdiyi ən böyük tarixi töhfədir. Ürəyi vətən eşqi ilə döyünən hər bir azərbaycanlı dövlət müstəqilliyimizin möhkəmliyi, onun qüdrətlənməsi haqqında düşünməli və bu sahədə əlindən gələni etməlidir. Xaricdəki azərbaycanlılar indi bilirlər ki, artıq onların arxasında milli-mənəvi dəyərlərini, hüquq və mənafelərini qoruyan tarixi vətənləri olan Azərbaycan kimi müstəqil dövlətimiz durur.

1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev dünya Azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Sonra bu təşəbbüs mərkəzi hakimiyyətin də dəstəyini qazandı və artıq bütün azərbaycanlılar rəsmən bu günü bayram kimi qeyd edirlər.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü-Azərbaycan xalqının birlik arzusunun simvolik təcəssümü günüdür. Fərəh hissi ilə demək lazımdır ki, bu bayram dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir ənənə halı almış və mənəvi ehtiyaca çevrilmişdir. Həmrəylik günü dünya azərbaycanlıları üçün ən mühüm bayrama çevrilib. İndi həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycanı vətənləri kimi sevən digər xalqların nümayəndələri də qeyd edirlər.

**Günel TAPDIQQIZI,**
**«Qəbələ»**